**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# MÜASİR AZƏRBAYCAN DİLİ

*(Bakalavriat səviyyəsi üçün)*

**BAKI - 2023**

**Tərtibçilər**

**Könül Səmədova**
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elşad Abışov**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Elmi redaktor**

**Mahirə Hüseynova**
filologiya elmlər doktoru, professor

**Rəyçilər**

**İbrahim Bayramov**
filologiya elmləri doktoru, professor

**Nərgiz Hacıyeva**
filologiya elmləri doktoru, dosent

**Fənnin xarakteri**

Bu fənn dilçiliyin həm nəzəri (fonetika, leksikologiya, qrammatika) həm də tətbiqi (orfoepiya, orfoqrafiya, leksikoqrafiya) sahələrini özündə birləşdirən anlayışlar sistemini əhatə etməklə fundamental tədqiqatlar əsasında müasir Azərbaycan dilinin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşunun spesifikasını öyrənir.

**Fənnin məqsədi**

Tələbələrə müasir Azərbaycan ədəbi dilinin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu haqqında ətraflı məlumat vermək, danışıq səslərinin fiziki, fizioloji və ictimai əlamətləri eləcə də, ahəng qanunu, heca, vurğu və s. kimi fonetik hadisələrlə bağlı bilikləri yeni faktlarla genişləndirmək, onların düzgün yazı və tələffüz qaydalarını qanunauyğuluq əsasında mənimsəmələrinə çalışmaq, dilin lüğət fondunun zənginləşmə və formalaşma mənbələri, işlənmə dairəsinə görə söz qrupları (ümumişlək sözlər, dialektizmlər, poetik sözlər, terminlər, arqo və jarqon sözlər, ekzotik sözlər), həmçinin forma və məzmunca söz qrupları (omonimlər, sinonimlər və antonimlər) ilə bağlı nəzəri mülahizələrin elmi əsaslarla daha anlaşıqlı qavranılmasına nail olmaq, xalqımızın etnomədəni dəyərlərinin əsas göstəricisi kimi təzahür edən frazeoloji və onomastik vahidlərin dildə yaranma qanunauyğunluqlarını diqqətə çatdırmaq, habelə qrammatik quruluş, onun səciyyəvi cəhətləri, nitq hissələrinin təsnifi prinsipləri, kök şəkilçi münasibətləri, sintaktik əlaqələr, söz birləşmələri və cümlə, cümlə üzvləri, cümlənin strukturuna görə növləri, sadə və mürəkkəb cümlələr və sintaktik bütövlər barədə əsaslı təsəvvür yaratmaqdır

**Fənnin vəzifələri**

- tələbələrə Azərbaycan dilinin fonem tərkibi və fonemləri müəyyənləşdirməyin vasitə və yollarını mənimsətmək.
- tələbələrdə Azərbaycan dilinin fonetik quruluşu haqqında təsəvvür formalaşdırmaq.
- tələbələrə - ədəbi dilin yazılı və şifahi qollarını formalaşdıran orfoqrafiya və orfoepiya qaydaları, onların nəzəri əsasları haqqında ətraflı məlumat vermək.
- dilin inkişafının cəmiyyətin inkişafı ilə bağlı olduğunu diqqətə çatdırmaq.
- dilin lüğət tərkibində geniş işləklik imkanlarına malik olan işlənmə dairəsinə görə söz qrupları, həmçinin forma və məzmunca söz qrupları bu qruplar arasındakı əlaqə və münasibətlər barədə müfəssəl təsəvvürün formalaşmasına nail olmaq.
- nitq hissələri, nitq hissələrində konversiya məsələsi, substantivləşmə, atributivləşmə, adverbiallaşma, kök və şəkilçi morfemlər onların özünəməxsus xüsusiyyətlərinin elmi əsaslarını mənimsətmək.
- sintaktik quruluş, söz birləşməsi və cümlə, cümlənin strukturu, genişləndirilmiş sadə cümlə və mürəkkəb cümlələr, onların arasında əlaqə, oxşar və fərqli xüsusiyyətlər mətn dilçiliyinin aktual məsələləri haqqında tam təsəvvür formalaşdırmağa nail olmaq.

**Fənnin tələbləri**

Bu fənn yeni təlim metodlarına əsaslanmaqla tələbələri problemin müstəqil həllini tapmağa həvəsləndirmək, onları yaradıcılıq prosesinə cəlb etmək, tədris prosesində innovativ metodları stimullaşdırmaq, Azərbaycan Respublikası Dövlət dilinin inkişafında müasir Azərbaycan dilinin rolu haqqında təşəbbüs formalaşdırmağı başlıca tələb kimi müəyyən edir.

**Fənin təlim nəticələri**

- Müasir Azərbaycan dilinin fonetik quruluşunun əsas xüsusiyyətlərini izah edir;
- Azərbaycan dilinin fonemlər sistemini, fonetik parçalarını, fonetik hadisələri təsvir edir;
- Fonetik transkripsiyanın dildə rolunu, vurğu və onun növlərini, avazlanmanı (intonasiyanı), orfoqrafiya qaydalarını və prinsiplərini, orfoepiya qaydalarını izah edir;
- Fonetik hadisə və qanunları, səs, heca, qitə və ibarə kimi fonosiqmentlərin köməyi ilə fonetikanın digər elmlərlə bağlı sahələrinə inteqrasiyanı şərh edir;
- Fonemlər sistemini, yazı, əlifba və qrafikanı, ədəbi tələffüz mənbələrini sərbəst şəkildə ayıraraq təhlil edir;
- Azərbaycan dilinin lüğət tərkibinin xarakterik xüsusiyyətlərini, lüğət tərkibinin əsas və əlavə, aktiv və passiv hissələrini, zənginləşmə mənbələri və yolları haqqında məlumatları izah edir;
- Dilin lüğət tərkibində olan sözlərin işlənmə dairəsinə və işlənmə xüsusiyyətlərinə görə növlərini qruplaşdırır;
- Sözlərin məna qruplarını, onların yaranma yollarını, leksik-semantik xüsusiyyətlərini, həmçinin frazeoloji və onomastik vahidləri təhlil edir;
- Nitq hissələri, onların quruluşu və lüğəvi məna növlərini, morfoloji kateqoriyaların leksik-qrammatik xüsusiyyətlərini şərh edir;
- Nitq hissələrinin təsnifini və kök, o cümlədən şəkilçi morfemləri izah edir;
- Köməkçi nitq hissələrini əsas nitq hissələrindən fərqləndirir;

- Sözlər və söz birləşmələri arasında sintaktik əlaqələrin mahiyyətini qanunauyğun şəkildə izah edir;
- Sadə və mürəkkəb cümlələr, onların növləri və aralarındakı oxşar və fərqli xüsusiyyətləri aydın şəkildə şərh edir

**Yoxlama forması** (imtahan, yoxlama və ya kurs işi, müstəqil işlər necə aparılacaq). Təhsilalanların bilik və bacarıqları təlimata uyğun olaraq təcrübi və laboratoriya məşğələlərində sorğular, ayrı-ayrı mövzular üzrə test tapşırıqlarının, məruzə, referat və s. işlərin yerinə yetirilməsi, kollokviumlar və imtahan vasitəsilə yoxlanılacaqdır.

**Fənn üzrə saatların bölgüsü**

Müasir Azərbaycan dili (fonetika, leksikologiya, morfologiya, sintaksis) fənni filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasında təhsil alan tələbələrə I kursun II semestrində (fonetika) 75 saat (30 saat mühazirə, 45 saat seminar), II kursun I semestrində (leksikologiya) 60 saat (30 saat mühazirə, 30 saat seminar), II kursun II semestrində (morfologiya) 75 saat (30 saat mühazirə, 45 saat seminar) və III kusun I semestrində (sintaksis) 75 saat (30 saat mühazirə, 45 saat seminar)  həcmində tədris olunur. Fənnə verilən saatların həcmi mütəxəssis hazırlığı üzrə dövlət standartlarının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik məşğələlərdir. Məşğələnin əsas forması ilə yanaşı tələbələrin auditoriyadan kənar yerinə yetirdiyi (mərhələləri formada müəyyənləşdirilən) sərbəst işlər də fənnin dərindən mənimsənilməsinə əhəmiyyətli dərəcədə kömək edir.

## MÖVZUNUN PLANI

| | | **müha zirə** | **seminar** |
|---|---|---|---|
| | **Fonetika** | | |
| 1 | Azərbaycan dili. Azərbaycan dilinin tarixi. Azərbaycan dilinin türk dilləri arasında yeri. | 2 | 4 |
| 2 | Azərbaycan ədəbi dili. Ədəbi dilin inkişaf dövrləri. Norma və üslublar. Ədəbi dilin inkişafında görkəmli şəxsiyyətlərin rolu. H.Əliyev və Azərbaycan dili. | 2 | 4 |
| 3 | Fonetika dilçiliyin səs sistemindən bəhs edən bölmə kimi. Azərbaycan dilinin fonetik quruluşu. Fonetikanın növləri. Fonetik transkripsiya. | 2 | 4 |
| 4 | Səs. Nitq səsləri və onların əmələ gəlməsi. Səsin ictimai əhəmiyyəti. | 2 | |
| 5 | Danışıq səsi və fonem anlayışı. Danışıq səslərinin təsnifi. Vokalizm və konsonantizm. Sait səslər. | 2 | 4 |
| 6 | Samit səslərin bölgüsü və xüsusiyyətləri. | 2 | 2 |
| 7 | Nitqin fonetik parçaları. Heca. Heca üçbucaqları. | 2 | 4 |
| 8 | Nitq parçalarının mənalı (fonosemantik) səslənməsi. Vurğu. Vurğunun növləri. | 2 | 4 |
| 9 | Azərbaycan dilində fonetik hadisə və qanunlar. Ahəng qanunu Azərbaycan dilinin əsas qanunu kimi. | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| 10 | Avazlanma (intonasiya). Sadə və mürəkkəb cümlələrin avazlanması. | 2 | 2 |
| 11 | Orfoepiya. Orfoepiyanın normaları. Orfoepiya və ədəbi tələffüz. Ədəbi tələffüzün formalaşma və pozulma mənbələri. | 2 | 4 |
| 12 | Orfoqrafiya. Orfoqrafiyanın prinsipləri. | 2 | 2 |
| 13 | Əlifba. Azərbaycan əlifbası. Azərbaycanda əlifba islahatı. Qədim milli türk əlifbası. | 2 | 2 |
| 14 | Qrafika və yazı. Yazının tipləri. | 2 | 2 |
| 15 | Punktuasiya. Azərbaycan dilində durğu işarələri. | 2 | 1 |
| | **Leksikologiya** | | |
| 1 | **Leksikologiyaya giriş** | 2 | 2 |
| 2 | Azərbaycan dilinin lüğət tərkibi. | 2 | 2 |
| 3 | Mənşə cəhətdən müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibi. | 2 | 2<br>2 |
| 4 | İşlənmə dairəsinə görə fərqlənən söz qrupları. Arxaizmlər və dialektizmlər. | 2 | |
| 5 | İşlənmə dairəsinə görə fərqlənən söz qrupları. Neologizmlər, terminlər, arqo və jarqonlar, ekzotik sözlər. | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| 6 | Azərbaycan dilinin semasiologiyası. | 2 | 2 |
| 7 | Forma və məzmunca söz qrupları: Omonimlər. | 2 | 2 |
| 8 | Sinonimlər, antonimlər, tabu sözlər və paronimlər. | 2 | 2 |
| 9 | Etimologiya, Azərbaycan dilinin onomologiyası. | 2 | 2 |
| 10 | Azərbaycan dilinin onomastik sistemi. | 2 | 2 |
| 11 | Azərbaycan dilinin frazeologiyası. | 2 | 2 |
| 12 | Frazeoloji vahidlərin məna növləri. | 2 | 2 |
| 13 | Azərbaycan dilinin leksikoqrafiyası. | 2 | 2 |
| 14 | Derivatologiya, leksik yolla söz yaradıcılığı. | 2 | 2 |
| 15 | Morfoloji və sintaktik yolla söz yaradıcılığı. | 2 | 2 |

| | Morfologiya | | |
|---|---|---|---|
| 1 | Qrammatika. Qrammatikanın növləri. Dilin qrammatik quruluşu. | 2 | 2 |
| 2 | Morfologiyaya giriş. Sözün mənalı hissələri. Kök və şəkilçi. Nitq hissələrinin təsnifi prinsipləri | 2 | 4 |
| 3 | İsim bir nitq hissəsi kimi. İsmin quruluşca növləri | 2 | 4 |
| 4 | İsmin qrammatik kateqoriyaları. Kəmiyyət və mənsubiyyət kateqoriyası. | 2 | 2 |
| 5 | Hal və xəbərlik kateqoriyası. | 2 | 4 |
| 6 | İsmin atributivləşməsi. | 2 | 2 |
| 7 | Sifət. Sifətin quruluşca növləri. | 2 | 2 |
| 8 | Sifətin substantivləşməsi və adverbiallaşması. Sifətin dərəcələri. | 2 | 2 |
| 9 | Say. Sayın özünəməxsus xüsusiyyətləri və məna növləri. | 2 | 1 |
| 10 | Əvəzlik əvəzliyin növləri. | 2 | 4 |
| 11 | Feil, feilin lüğəvi məna növləri və quruluşu | 2 | 4 |
| 12 | Feilin təsirlik və növ kateqoriyası | 2 | 4 |
| 13 | Şəxsli və şəxssiz feillər. | 2 | 4 |
| 14 | Zərf. Zərfin quruluşu və məna növləri. | 2 | 4 |
| 15 | Köməkçi və qeyri-müəyyən nitq hissələri. | 2 | 4 |
| | | **64** | **44** |
| | | | |

| | Sintaksis | | |
|---|---|---|---|
| 1 | Sintaksis. Sintaksisin əsas vahidləri. Söz birləşməsi və cümlədə sözlər arasında sintaktik əlaqələr. Uzlaşma, idarə və yanaşma əlaqələri. | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| 2 | Söz birləşmələrinin əsas tərəfə görə təsnifi: ismi birləşmələr. | 2 | 2 |
| 3 | Feili birləşmələr. Feili birləşmələrdə asılı tərəflərin ifadə vasitələri. Zərf birləşmələri. Söz birləşmələrinin cümlədə rolu. | 2 | 2 |
| 4 | Cümlə, əsas əlamətləri. Məqsəd və intonasiyaya görə cümlənin növləri. | 2 | 2 |
| 5 | Baş üzvlərin iştirakına görə cümlənin növləri. Cüttərkibli və təktərkibli cümlələr. Bütöv və yarımçıq cümlələr. Elliptik cümlələr. | 2 | 4 |
| 6 | Cümlə üzvlərinin təsnifi. Baş üzvlər. | 2 | 2 |
| 7 | Cümlənin ikinci dərəcəli üzvləri. Tamamlıq, təyin. | 2 | 4 |
| 8 | Zərflik, mənaca növləri və ifadə vasitələri. | 2 | 2 |
| 9 | Cümlənin həmcins üzvləri. Həmcins üzvlərdə ixtisarlar. | 2 | 4 |
| 10 | Cümlə üzvlərinin xüsusiləşməsi. Əlavə sözlər və əlavə cümlələr. | 2 | 4 |
| 11 | Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər. | 2 | 1 |
| 12 | Mürəkkəb cümlə. Mürəkkəb cümləni təşkil edən komponentlər. Tabesiz mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlələrin məna əlaqələrinə görə təsnifi. | 2 | 4 |
| 13 | Tabeli mürəkkəb cümlələr. Baş və budaq cümlə anlayışı. Budaq cümləyə görə tabeli mürəkkəb cümlənin təsnifi. | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| | Mübtəda və xəbər budaq cümləli tabeli mürəkkəb cümlələr. | | |
| 14 | Tamamlıq və təyin budaq cümlələri. Tabeli mürəkkəb cümlələr. | 2 | 2 |
| 15 | Zərflik budaq cümləli tabeli mürəkkəb cümlələr. | 2 | 4 |

## Giriş

Dil haqqında ümumi məlumat. Dil və təfəkkür, dil və nitq. Dilin xalqın tarixi ilə bağlılığı. Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi. Azərbaycan dilinin türk dilləri qrupunda yeri. Azərbaycan dilinin tarixi inkişaf mərhələləri.

Ümumxalq Azərbaycan dilinin tərkib hissələri. Azərbaycan ədəbi dili. Ədəbi dilin normaları. Ədəbi dilin şifahi və yazılı qolları. Ədəbi dilin inkişaf dövrləri.

Azərbaycan ədəbi dilinin inkişafında görkəmli şəxsiyyətlərin rolu. Ədəbi dilin xəlqiliyi, sadəliyi, saflığı uğrunda mübarizə. Dilin lüğət tərkibi, qrammatik quruluşu və digər normaların sabitləşməsində mətbuatın rolu; "Əkinçi" qəzeti və "Molla Nəsrəddin" jurnalı.

XX əsrdən bəri Azərbaycan dilinin dövlət dili kimi fəaliyyəti. H.Əliyev və Azərbaycan dili. Dilimiz ilə bağlı prezident fərmanları.

**I Fonetika**

Fonetika dilçiliyin səs sistemindən bəhs edən bir bölməsi kimi. Fonetikanın nəzəri və əməli əhəmiyyəti. Fonetikanın dilçiliyin digər sahələri - leksikologiya, qrammatika, dil tarixi, dialektologiya ilə bağlılığı.

Fonetikanın növləri-tarixi, təsviri, təcrübi, fizioloji və müqayisəli fonetika. Dilin fonetik sisteminin tədqiqat üsulları:

müşahidə üsulu, təcrübi üsul. Azərbaycan dilinin fonetik quruluşu. Səslər, zərbələr, gurultular, tonlar.

Nitq səsləri və onların əmələ gəlməsi. Danışıq səsləri dilin maddi materiyası kimi. Nitq səslərinin əmələ gəlməsində danışıq üzvlərinin rolu. Danışıq üzvlərinin vəzifələrinə görə bölgüsü: idarə edən, icra edən üzvlər. Danışıq üzvlərinin bölgüsü: fəal və qeyri-fəal üzvlər. Səsin məxrəci (artikulyasiya).

Səsin formalaşma mənbələri və əlamətləri. Səsin akustik əlamətləri: səsin tonu, gücü, tembri. Səsin anatomik – fizioloji xüsusiyyətləri. Səsin formalaşmasında dil, dodaqlar və alt çənənin rolu. Səsin ictimai əlamətləri. Fonetik transkripsiya.

Azərbaycan dili fonemlərini müəyyənləşdirməyin vasitə və yolları. Danışıq səsi və fonem anlayışı. Fonemin əsas əlamətləri. Fonem və fonem variantları. Azərbaycan dilinin fonetik vasitə və vahidləri. Müasir Azərbaycan ədəbi dilinin fonemlər sistemi. Vokalizm və konsonantizm. Səslərin təsnifində akustik və fizioloji meyar.

Azərbaycan ədəbi dilində sait səslər. Saitlərin bölgüsü prinsipləri, a) dilin üfüqi vəziyyətinə görə-dilönü, dilortası, dilarxası saitlər, b) dilin şaquli vəziyyətinə görə-açıq, qapalı və yarımqapalı saitlər, c) dodaqların vəziyyətinə görə-dodaqlanan və dodaqlanmayan saitlər, ç) məxrəc sabitliyinə görə-təkavaz və cütavaz saitlər, d) kəmiyyətə görə-adi, uzun və qısa saitlər, e) gərgin və qeyri-gərgin saitlər, Azərbayacan dilində saitlər sisteminin quruluşu.

Azərbaycan ədəbi dilində samitlər sistemi. Samitlərin təsnifi prinsipləri: a) küyün kəmiyyətinə görə-tonlu, küylü samitlər-kar və cingiltili samitlər, b) küyün yaranma yerinə görə-qoşadodaq və dodaq-diş samitləri, dil samitləri-dilönü (dil-yuvaq, dil-diş samitləri), dilortası, dilarxası və dildibi-boğaz samitləri, c) küyün yaranma üsuluna görə-kipləşən (və ya

partlayan) və növlü (və ya sürtünən) samitlər, saf və qovuşuq samitlər.

Nitqin fonetik parçaları: ibarə, qitə və heca. Heca tipləri, heca ücbucaqları. Səslərin güc, qüvvət dərəcəsinə görə heca tipləri-nöqtə, heca, maili ox, heca, bucaq heca. Hecaların növləri: açıq, qapalı, örtülü, örtüsüz hecalar. Fonetik tərkibə görə saf və qovuşuq heca.

**Vurğu**. Azərbaycan dilində vurğunun güc, qüvvət dərəcəsi.

Azərbaycan dilində fonetik hadisə və qanunlar. Assimilyasiya hadisəsi: Davamlılığına görə-daimi və təsadüfi assimilyasiya, istiqamətinə görə irəli və geri assimilyasiya, keyfiyyətinə görə tam və natamam assimilyasiya. Dissimilyasiya hadisəsi. Uzaq və yaxın dissimilyasiya. Proteza (səsartımı), eliziya (səsdüşümü), metateza (yerdəyişmə) hadisələri.

**Ahəng qanunu** Azərbaycan dilinin əsas fonetik qanunu kimi.

Saitlərin ahəngi, samitlərin ahəngi, saitlərlə samitlərin ahəngi. Cingiltiləşmə qanunu. Nitq parçalarının mənalı (fonosemantik) səslənməsi. Azərbaycan dilində avazlanma (intonasiya). Avazlanmanın tərkib hissələri-melodika, ritm, intensivlik, temp və tembr. Avazlanmanın tipləri: nəqli, sual, əmr, nida avazlanmaları (intonasiyaları). Sadə cümlələrin avazlanması (intonasiyası), mürəkkəb cümlələrin avazlanması (intonasiyası).

**II Əlifba**

Əlifba haqqında ümumi məlumat. Əlifbanın yaranma tarixi. Azərbaycan əlifbasının tarixi. Qədim-milli türk əlifbası: Orxon-göytürk, türk-uyğur əlifbası. Ərəb əlifbasından istifadə edilməsi. Rus qrafikasına əsaslanan Azərbaycan əlifbası. Latın

qrafikalı Azərbaycan əlifbası. Əlifba islahatları. Əlifbanın dəyişdirilməsində M.F.Axundovun rolu.

**III Qrafika**

Qrafik sistem haqqında məlumat. Qrafikanın özünəməxsus tələbləri. Müasir Azərbaycan əlifbasındakı hərflərin quruluş və formaları. Əlifbadakı hərflərlə səslərin nisbəti. Latın qrafikalı əlifbada qrafik tələblər.

**IV Orfoepiya**

Orfoepiya anlayışı. Orfoepiyanın obyekti. Orfoepiyanın formalaşması və inkişaf tarixi. Orfoepiyanın əhəmiyyəti. Ədəbi tələffüzün mənbələri. Tələffüz şəraiti. Orfoepiyanın normaları. Saitlərin tələffüzünə aid qaydalar. Bəzi qrammatik formaların tələffüzünə aid qaydalar. Ədəbi tələffüzün pozulma mənbələri. Orfoepiyanın orfoqrafiya ilə əlaqəsi.

**V Orfoqrafiya**

Orfoqrafiya haqqında ümumi məlumat. Azərbaycan orfoqrafiyasının tarixinə dair. Azərbaycan orfoqrafiyasının prinsipləri. Fonetik, morfoloji və ənənəvi prinsiplər. Şəkilçilərin yazılışı. Sözlərin bitişik, yarımbitişik və defislə yazılması. Sözlərin baş hərflərinin böyük yazılması. İxtisar edilən sözlərin və qısaltmaların yazılışı. Sözün sətirdən-sətrə keçirilməsi qaydaları. Durğu işarələri.

**VI Yazı**

Yazı haqqında ümumi məlumat. Yazının yaranması və inkişafı. Yazının növləri: piktoqrafik, ideoqrafik, silloqrafik və fonoqrafik yazı. Azərbaycan yazısının tarixi. Fonetik və fonematik yazı.

**VII Leksikologiya**

Azərbaycan ədəbi dilinin lüğət tərkibi. Dilin lüğəvi vahidləri-leksem və frazemlər. Leksikologiyanın növləri-tarixi, təsviri və müqayisəli leksikologiya. Söz leksikanın əsas vahidi kimi. Sözün zahiri və daxili cəhəti. İlkin və törəmə sözlər.

Ümumi və xüsusi sözlər. Qədim və müasir sözlər. Fikrin ifadəsinə görə kommunikativ və ekspressiv sözlər.

Mənşə cəhətdən müasir Azərbaycan ədəbi dilinin leksik tərkibi. Milli və alınma sözlər. Xüsusi Azərbaycan sözləri. Azərbaycan sözlərinə xas xüsusiyyətlər. Sözlərin alınmasının forma və yolları. Alınma sözlərin mənbəyi və xüsusiyyətləri. Beynəlmiləl sözlər. Alınma sözlərin təsnifi. Alınma sözlərin mənimsənilməsi. Fonetik, semantik və qrammatik dəyişikliklər əsasında mənimsənilən sözlər.

İşlənmə dairəsinə görə söz qrupları. Ümumişlək və ümumişlək olmayan sözlər. Poetik sözlər, köhnəlmiş sözlər, tarixizmlər və arxaizmlər, nitqdə onların üslubi rolu.

Neologizmlər, onların əmələ gəlməsi və tipləri. Məna və formasına görə neologizmlərin növləri: leksik, semantik və leksik-semantik neologizmlər. Terminlər, onların əsas xüsusiyyətləri. Dialektizmlər və onların növləri: fonetik, leksik və qrammatik dialektizmlər.  Loru sözlər, vulqar sözlər, jarqon və arqonlar, varvarizmlər, ekzotik sözlər və onların qrupları.

**VIII Onomalogiya**

Onomalogiya lüğət tərkibindəki xüsusi adlardan bəhs edən elm sahəsi kimi. Onomalogiya və onomastika. Müasir Azərbaycan ədəbi dilinin onomastik sistemi. Onomastik leksikanın təsnifi: antroponimlər, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər və ktemotonimlər. Onomastik vahidlərin yaranması və dəyişməsi.

Onomastik vahidlərin üslubi rolu. Onomastik vahidlərin orfoepiyası və orfoqrafiyası. Onomastik vahidlərin dil mənsubiyyətinə görə təsnifi. Onomastikada norma məsələləri. Folklor onomastikası.

**IX Semasiologiya**

Azərbaycan ədəbi dilinin semantik sistemi. Sözün mənası. Tam və natamam məna. Sözün məna quruluşu. Sözün lüğəvi və

qrammatik mənaları. Qrammatik mənanın ifadə vasitələri. Sözün mənasının dəyişilməsi, genişlənməsi və daralması.

Sözün həqiqi və məcazi mənası. Məcazların növləri-metafora, metonimiya, sineqdoxa. Sözlərin tək və çoxmənalılığı. Çoxmənalılığın əmələ gəlməsi. Çoxmənalılığın səciyyəvi xüsusiyyətləri. Çoxmənalılığın nitq hissələri ilə bağlılığı.

Sözlərin mənaca qrupları. Omonimlər. Omonimlərin çoxmənalı sözlərdən fərqi. Omonimlərin tipləri-omofon, omoform və omoqraflar. Omonimlərin bədii nitqdə işlənməsi.

Sinonim sözlər. Sinonimlərin yaranma yolları. Sinonimlərin tipləri. Leksik sinonimlər və onların xüsusiyyətləri. Sinonimik cərgə. Sinonimlərin nitqdə üslubi rolu.

Antonim sözlər. Antonimlərin leksik-semantik xüsusiyyətləri. Antonimlərin əmələgəlmə yolları. Tam və nisbi antonimlər. Antonim sözlərin polisemiya və sinonimika ilə əlaqəsi. Antonimlərin mənaca növləri. Antonimlərin bədii-üslubi rolu.

Paronim sözlər və onların xüsusiyyətləri. Tabu və evfemizm.

**X Frazeologiya**

Frazeoloji vahid anlayışı. Frazeoloji vahidlə söz birləşməsi arasında ümumi və fərqli cəhətlər. Frazeoloji vahidlərin məna növləri. Frazeoloji vahidlərin xüsusiyyətləri. Azərbaycan dili frazeoloji vahidlərinin tipləri. Frazeoloji söz birləşmələri, ifadə və ibarələr. Frazeoloji vahidlərin yaranması. Ümumi və xüsusi frazeoloji vahidlər. İdiomatik ifadələr və onların əmələgəlmə yolları. Atalar sözü və məsəllər. Hikmətli sözlər. Frazeoloji vahidlərin üslubi imkanları.

**XI Leksikoqrafiya**

Lüğət haqqında ümumi məlumat. Lüğətçilik tarixindən. Azərbaycan dili lüğət və sözlükləri. Lüğətlərin quruluşu və tərtibi üsulları. Lüğətlərin tipləri: ensiklopedik lüğətlər, sahə lüğətləri, linqvistik lüğətlər.

Azərbaycan lüğətçiliyinin son dövr nailiyyətləri. Azərbaycan dilinin yeni orfoqrafiya lüğəti.

**XII Derivatologiya**

Sözyaratma anlayışı. Azərbaycan ədəbi dilinin leksik tərkibinin zənginləşmə mənbə və yolları. Dilin lüğət tərkibinin daxili imkanlar əsasında zənginləşməsi. Yeni söz və ifadə yaradılması ilə lüğət tərkibinin zənginləşdirilməsi. Leksik, semantik, morfoloji və sintaktik yolla söz yaradılması. Dialekt və şivələrdən söz və ifadə götürülməsi ilə lüğət tərkibinin zənginləşməsi. Lüğəvi alınmalar hesabına zənginləşmə.

**XIII Qrammatika**

Qrammatika anlayışı. Qrammatikanın növləri: tarixi, müqayisəli, tarixi-müqayisəli, təsviri-elmi və məktəb qrammatikası. Azərbaycan dilinin qrammatik quruluşu.

**XIII.1 Morfologiya**

Morfologiya sözlərin cümlədə dəyişməsi qaydalarından bəhs edən dilçilik sahəsi kimi. Morfologiyanın tədqiqat obyekti. Sözün tərkibi və quruluşu. Söz formalar və onların paradiqmaları. Sözün mənalı hissələri. Kök və şəkilçi morfemlər, şəkilçilərin xüsusiyyətləri.

Vəzifə və məna xüsusiyyətlərinə görə şəkilçilərin növləri. Sözdüzəldici, sözdəyişdirici və formadüzəldici şəkilçilər.

Sözlərin leksik-qrammatik qruplarda birləşməsi. Nitq hissələrinin təsnifi prinsipləri. Əsas və köməkçi nitq hissələri. Səstəqlidi sözlər və nida.

a) Əsas nitq hissələri

İsim. İsmin leksik-qrammatik kateqoriyaları. Lüğəvi məna növləri. Xüsusi və ümumi isimlər. İsimlərdə kəmiyyət kateqoriyası. Tək, cəm, toplu isimlər. Konkret və mücərrəd isimlər. İsmin quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb isimlər. İsimlərdə vurğu. İsmin mənsubiyyət kateqoriyası. Mənsubiyyətin morfoloji və morfoloji-sintaktik üsulla yaradılması. Ki vasitəsilə mənsubiyyət anlayışının yaradılması. Mənsubiyyətə görə dəyişmə baxımından fərqlənən sözlər. Mənsubiyyət kateqoriyasının üslubi imkanları.

İsmin hal kateqoriyası. Məkani və qrammatik hallar. Müəyyənlik və qeyri-müəyyənlik bildirən hallar. İsimlərdə xəbərlik kateqoriyası. İsmin cümlədə rolu. İsimlərin atributivləşməsi. İsmin sintaktik vəzifələri.

Sifət. Sifət bir nitq hissəsi kimi. Lüğəvi məna növləri. Leksik, morfoloji və sintaktik xüsusiyyətləri. Sifətin quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb sifətlər. Adlardan və feilərdən düzələn sifətlər. Sifəti zərf və feili sifətdən fərqləndirən əlamətlər. Əsli və nisbi sifətlər. Sifətin dərəcələri – adi, azaltma və çoxaltma dərəcələri. Müqayisə dərəcələrinin morfoloji və sintaktik yolla yaradılması. Sifətin substantivləşməsi, adverbiallaşması. Sifətin cümlədə rolu.

Say. Lüğət tərkibinin zənginləşməsində sayların rolu. Sayın mənaca növləri. Miqdar sayları: müəyyənlik bildirən miqdar sayları və kəsr sayları. Qeyri-müəyyən miqdar saylarının leksik, morfoloji və sintaktik üsulla yaranması. Sıra sayları. Sıra saylarının yazılışı və tələffüzü. Sayın quruluşca növləri. Sayın orfoqrafiyası. Sayın substantivləşməsi. Sayın sintaktik vəzifəsi.

Əvəzlik. Əvəzliklərin mənşəyi və digər nitq hissələrindən fərqi. Əvəzliyin mənaca növləri. Şəxs əvəzlikləri və onların xüsusiyyətləri. İşarə əvəzlikləri, onların hallanması. O, bu

əvəzliklərinin mübtəda vəzifəsində işlənməsi. Qeyri-müəyyənlik bildirən əvəzliklər, onların ismin yerinə işlənməsi. Sual əvəzlikləri. Təyini əvəzliklər və onların əmələ gətirdiyi məna çalarları. İnkar əvəzliyi. Əvəzliyin quruluşca növü və cümlədə sintaktik vəzifəsi. Əvəzliklərin dəyişməsi və başqa nitq hissələri ilə əlaqəsi.

Feil. Feilin lüğəvi məna növləri: hərəkət, iş, nitq, hal-vəziyyət və təfəkkür feilləri. Feilin quruluşca növləri. Addan və feildən düzələn feillər. Mürəkkəb feillər. Feili birləşmələrdə idiomatiklik. Tərz konstruksiyalı feili birləşmələr. Feillərdə təsirlik kateqoriyası. Feillərin təsdiq və inkar formaları. İnkarlıq məzmunu yaradan vasitələr. Feillərdə qrammatik növ kateqoriyası. Məlum, məchul, qayıdış, qarşılıq-birgəlik və icbar növ feillər. Feillərdə şəxs kateqoriyası. Feilin şəkil kateqoriyası. Şəkil kateqoriyası modallığın qrammatik-morfoloji yolla ifadə üsulu kimi. Əmr şəkli, onun ifadə etdiyi məna çalarları. Xəbər şəkli, onun səciyyəvi xüsusiyyətləri. Zaman kateqoriyası. Onun ədatlarla işlənməsi və ifadə etdiyi mənalar. Arzu şəkli və vacib şəkli. Lazım və şərt şəkilləri. Feil şəkillərinin mürəkkəbi. İdi, imiş, isə hissəciklərinin feil olmayan digər nitq hissələri ilə işlənməsi.

Feilin şəxssiz formaları. Məsdər, isim və feilə aid xüsusiyyətləri. Feili sifət, onun feil və sifətə aid xüsusiyyətləri. Feili sifət şəkilçiləri. Feili bağlama, onun zərfə və feilə aid xüsusiyyətləri. Şəxssiz formaların substantivləşməsi və cümlədə rolu.

Zərf. Zərfin nitq hissəsi kimi formalaşması və inkişafı. Quruluşca növləri. Zərfin əmələgəlmə yolları. Zərfləşən sözlər. Zərfin mənaca növləri. Tərz, zaman, yer və miqdar zərfləri. Zərfin cümlədə rolu.

b)Köməkçi nitq hissələri

Qoşma. Qoşmanın tədqiqi tarixi. Qoşmaların mənşəyinə görə bölgüsü – sabit və qeyri-sabit qoşmalar. Qoşmaların hallarla işlənməsi. Qoşmaların yazılışı. Qoşmaların əmələ gətirdikləri məna çalarları. Qoşma və digər nitq hissəsi kimi işlənə bilən sözlər. Qoşmaların digər köməkçi nitq hissələrindən fərqi.

Bağlayıcı. Bağlyıcıların təsnifi. Bağlayıcı ilə qoşma arasında fərqlər. Quruluşuna görə bağlayıcıların növləri – sadə və mürəkkəb bağlayıcılar. Sintaktik vəzifəsinə görə bağlayıcıların növləri: tabesizlik və tabelilik bağlayıcıları. İşlənmə xüsusiyyətlərinə görə bağlayıcıların növləri. Bağlayıcılarda durğu işarələri.

Ədat. Ədatların tədqiqi tarixi. Mənşəyinə və məna çalarlıqlarına görə ədatların növləri. Ədatların orfoqrafiyası. Ədatların modal sözlərdən fərqi. Ədat və digər nitq hissəsi kimi işlənə bilən sözlər.

Modal sözlər. Azərbaycan dilində modallığın ifadə formaları. Modal sözlərin tədqiqi. Modal sözlərin xüsusiyyətləri. Modal sözlərin məna növləri. Modal sözlərin quruluşu. Modal sözlərin üslubi imkanları və cümlədə işlənmə yeri. Modal söz və əsas nitq hissəsi kimi işlənə bilən sözlər.

Nida. Nidalar xüsusi söz qrupu kimi. Mənşəyinə görə əsli və törəmə nidalar. Nidaların mənaca təsnifi. Nidaların quruluşca növləri. Nidaların leksik-semantik xüsusiyyətləri. Nidalarda durğu işarələri.

Təqlidi və imperativ sözlər. Təqlidi sözlərin təsnifi. Sadə və mürəkkəb təqlidi sözlər. Təqlidi sözlərlə nidaların fərqli xüsusiyyətləri. Söz yaradıcılığında təqlidi sözlərin rolu. İmperativ sözlərlə təqlidi sözlərin ümumi və fərqli cəhətləri.

**XIII.2 Sintaksis**

Sintaksisin əsas vahidləri. Potensial və aktual sintaksis. Aktual üzvlənmə: tema və rema. Söz və söz birləşmələri. Söz birləşməsi və cümlə. Söz birləşməsi və cümləni fərqləndirən cəhətlər. Sərbəst və sabit söz birləşmələri. Söz birləşmələri arasında məna əlaqələri: subyekt əlaqəsi, atributiv əlaqə, obyekt əlaqəsi, relyativ əlaqə. Söz birləşmələrinin təsnifi. Əsas və asılı tərəflər. İsmi birləşmələr. Uzlaşma və idarə əlaqəli ismi birləşmələr. Qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmələr və onların tipləri. Zərf birləşmələri. Feili birləşmələr. Feili birləşmələrdə asılı tərəfin ifadə vasitələri. Feili birləşmələrin cümlədə rolu.

Sintaktik əlaqələr. Tabesizlik və tabelilik əlaqələri. Tabelilik əlaqəsinin tipləri. Şəxsə və kəmiyyətə görə uzlaşma. Mübtəda ilə xəbərin, əlavənin, xüsusiləşmənin uzlaşması. Feillərlə və feil olmayan nitq hissələri ilə idarə. Qoşmalarla idarə. Yanaşma əlaqəsi. Cümlədəki sözlər və söz birləşmələri arasında əlaqə tipləri.

Sintaktik vahidlərin tərkibində rolu olan başqa vahidlər. Söz formaları. Cümlə, əsas əlamətləri: intonasiya, predikativlik, modallıq. Predikativliyin ifadəsi. Həqiqi, zəruri, ehtimali modallıq. Cümlənin təsnifi: məntiqi-sintaktik üzvlənmə imkanlarına görə cümlənin təsnifi. Üzvlənən və üzvlənməyən cümlələr, cümlənin məqsəd və intonasiyaya görə təsnifi. Cümlənin quruluşuna görə təsnifi: sadə və mürəkkəb cümlələr. Nəqli, sual, əmr, nida cümlələri. Struktur-semantik tamlığa görə cümlənin təsnifi: bütöv və yarımçıq cümlələr. Modallığa görə cümlənin təsnifi: təsdiq və inkar cümlələr.

Baş üzvlər. Baş üzvlərin iştirakına görə cümlənin növləri, cüttərkibli və təktərkibli cümlələr. Cümlə üzvlərinin təsnifi. Cümlənin baş üzvləri: mübtəda, xəbər. Mübtədanın quruluşca

növləri və ifadə vasitələri. Xəbərin quruluşu, ifadə vasitələri. İsmi və feili xəbər, söz xəbərlər.

İkinci dərəcəli üzvlər. Tamamlığın mənaca növləri-vasitəsiz və vasitəli tamamlıq. Tamamlığın ifadə vasitələri. Təyin, təyinin ifadə vasitələri və quruluşca növü. Zərflik. Zərfliyin mənaca növləri və ifadə vasitələri. Tərz, zaman, yer, səbəb, məqsəd, kəmiyyət, şərt və qarşılaşdırma zərflikləri.

Cümlənin həmcins üzvləri. Həmcinsliyin şərtləri. Həmcins üzvləri bağlayan vasitələr. Həmcins üzvlərdə ixtisarlar və ümumiləşdirici sözlər.

Xüsusiləşmə. Xüsusiləşmə yaradan vasitələr. Cümlə üzvlərinin xüsusiləşməsi.

Determinantlaşma. Cümlənin determinant üzvləri. Qrammatik üzvlənmə. Tamamlıq və zərfliklərin determinantlaşması.

Əlavə. Xarakterinə görə əlavələrin növləri. Cümlə üzvlərinin əlavəsi. Söz birləşmələrinin tərəflərinin əlavəsi. Xitabların əlavəsi. Tərkiblərin əlavəsi.

Təktərkibli cümlə. Quruluş xüsusiyyətləri. Təktərkibli cümlənin tədqiq tarixi. Xəbər əsasında formalaşan təktərkibli cümlələr. Ümumi şəxsli cümlədə xəbərin ifadə vasitələri. Qeyri-müəyyən şəxsli cümlələrlə ümumi şəxsli cümlələrin fərqləndirilməsi.

Şəxssiz cümlə. Şəxssiz cümlələrdə xəbərin ifadə vasitələri. Adlıq cümlə, üslubi imkanları. Müxtəsər və geniş cümlələr.

Bütöv və yarımçıq cümlələr. Yarımçıq cümlələrin öyrənilməsinin istiqamətləri. Cümlə üzvlərinin buraxılması.

Üzvlənməyən cümlələr – söz-cümlələr. Söz cümlələrin məna növləri-təsdiq söz cümlələr, inkar söz cümlələr, sual söz cümlələr, emosionallıq bildirən cümlələr.

Sadə cümləni genişləndirən vasitələr. Həmcins üzvlü cümlələr. Cümlə üzvlərinin həmcinsləşməsi. Həmcins mübtəda və tamamlıqlar. Xüsusiləşmiş üzvlü cümlələr. Qoşmalı xüsusiləşmələr. Tamamlıq və zərfliklərin xüsusiləşməsi. Ara sözlər. Bağlayıcılı dəqiqləşdirici xüsusiləşmiş üzvlər. Qoşulma konstruksiyalar. Cümlənin xitablarla genişləndirilməsi. Cümlənin ara sözlər və əlavə konstruksiyalarla genişləndirilməsi.

Kontekstual və elliptik yarımçıq cümlələr.

Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər. Ara sözlər və ara söz birləşmləri, məna növləri.

Xitab. Xitabların cümlə ilə əlaqəsi, xüsusiyyətləri, ifadə vasitələri. Cümlədə sözlərin sırası. Cüttərkibli və təktərkibli cümlələrdə sözlərin sırası. Həmcins üzvlərin sırası; leksik, qrammatik əsaslar üzrə sıralanma, situativ sıralanma.

Mürəkkəb cümlə. Mürəkkəb cümləni təşkil edən komponentlər. Mürəkkəb cümlənin növləri-tabesiz və tabeli mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlədə tərkib hissələrin quruluşu. Tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirən vasitələr. Tabesiz mürəkkəb cümlədə ortaq elementlər. Tabesiz mürəkkəb cümlənin məna əlaqələrinə görə təsnifi.

Tabeli mürəkkəb cümlə. Baş və budaq cümlə anlayışı. Analitik, sintetik tipli tabeli mürəkkəb cümlələr. Tabeli mürəkkəb cümlənin komponentlərini bağlayan vasitələr. Budaq cümlələrə görə tabeli mürəkkəb cümlələrin təsnifi. Mübtəda və xəbər budaq cümləsi. Tamamlıq, təyin, zərflik budaq cümlələri. Tabeli mürəkkəb cümlənin quruluşu.

Vasitəsiz və vasitəli nitq. Vasitəsiz nitqin qrammatik xüsusiyyətləri. Vasitəli nitq və tabeli mürəkkəb cümlə. Vasitəsiz nitqin vasitəli nitq ilə əvəz olunması.

# ƏDƏBİYYAT


**1.** Axundov A. Seçilmiş əsərləri. II cilddə. I cild, Bakı "Elm və təhsil" 2012.
**2.** Axundov A.Seçilmiş əsərləri. II cilddə, II cild, Bakı "Elm və təhsil" 2012.
**3.** Cəfərov S. Müasir Azərbaycan dili (leksika). Bakı, "Şərq-Qərb" 2007.
**4.** Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). Bakı, "Şərq-Qərb" 2007.
**5.** Mirzəyev H. Müasir Azərbaycan dilində feil, Bakı, 2006.
**6.** Hüseynzadə M. Müasir Azərbaycan dili (morfologiya). Bakı, "Şərq-Qərb" 2007.
**7.** Hüseynzadə M. Dil və Poeziya. Bakı, "Elm" 2008.
**8.** Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. II cilddə, Bakı "Elm" 2016.
**9.** Hüseynov M. Şeirşünaslıqda dil sənətkarlığı. Bakı, "Elm" 2007.
**10.** Verdiyev Z., Ağayev F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı, "Elm", 2019.
**11.** Xalıqov F.R. Azərbaycan onomalogiyası. Bakı, 2010.
**12.** Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II cilddə, I c., Bakı, "Nurlan", 2003.
**13.** Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II c., Bakı, "Nurlan", 2003.

**14.** Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, “Nurlan”, 2008.
**15.** Xəlilov B. Müasir Azərbaycan dili (fonetika, orfoepiyaorfoqrafiya). Bakı, “Elm və təhsil”, 2010.
**16.** Xəlilov B.Müasir Azərbaycan dili (sintaksis). Bakı,2017.
**17.** Kazımov Q.Ş. Müasir Azərbaycan dili (morfologiya). Bakı, “Elm və təhsil”, 2014.
**18.** Kazımov Q.Ş. Müasir Azərbaycan dili (sintaksis). Bakı, “Elm və təhsil”, 2010.
**19.** Məmmədov X., Cavadov Ə. Tabeli mürəkkəb cümlənin semantik-qrammatik xüsusiyyətləri. “Mütərcim”, Bakı, 2000.
**20.** Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c, Bakı “Nurlan”, 2003.
**21.** Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, “Bakı Universiteti nəşriyyatı” 2000.
**22.** Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, Araz, 2006.

# Mündəricat

Mövzuların planı.....................................................................7

Giriş.........................................................................................12

Mövzuların məzmunu.............................................................14

Ədəbiyyat.................................................................................25